_________*Milli Kitabxana*_________

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU**

**RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ**

# AZƏRBAYCAN MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ
## fənni üzrə

# P R O Q R A M

**(Bolonya prosesi, kredit sistemi üzrə ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün nəzərdə tutulmuşdur)**

***Proqram Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur (Azərbaycan Respublikası Təhsil Nazirinin 29.06.2010-cu il tarixli, 879№-li əmri)***

**BAKI - 2010**

**Proqramın müəllifi: RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ**
***Pedaqoji elmlər doktoru, professor, Əməkdar Müəllim***
***AMİ-nin Pedaqogika kafedrasının müdiri.***

***Elmi redaktor: Rüstəmov F.A. Pedaqoji elmlər doktoru, professor***

**Rəyçilər:**

**Sərdar Quliyev, pedaqoji elmlər doktoru, professor**
**Mircəfər Həsənov, professor**

***Proqram Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur (Azərbaycan Respublikası Təhsil Nazirinin 29.06.2010-cu il tarixli, 879№-li əmri)***

**BAKI- 2010**

*Nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir.*

***HEYDƏR ƏLİYEV***

# İZAHAT VƏRƏQİ

Son dövrlər respublikamızın həyatında gedən köklü dəyişikliklər, təhsil sistemində aparılan islahatlar, xüsusilə ali təhsil sisteminin məzmunundakı yeniliklər fənn proqramlarının, dərslik və dərs vəsaitlərinin yeniləşməsini, təkmilləşməsini, həmçinin fənlərin tədrisində yeni texnologiyalardan istifadə edilməsini tələb edir. Bu sahədə pedaqogika elmi aparıcı mövqedə olmaqla bərabər pedaqogika fənninin özünün və onun müxtəlif sahələrinin, o cümlədən "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" fənninin yeni tələblər əsasında, xüsusilə tədrisin Bolonya prosesi, kredit sisteminin tələbləri əsasında yenidən işlənməsi zərurətini meydana gətirmiş, tələbələrin "Sərbəst işlər"i yazma qaydaları haqqında metodik göstərişlərə, seminar məşğələlərinin yeni, fəal, interaktiv metodlarla təşkili və keçirilməsinə ehtiyac duyulmuşdur. Proqramın işlənməsi də məhz bu ehtiyacların ödənilməsi tələbindən irəli gəlmişdir.

Qeyd edək ki, "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun ali məktəblərimizdə öyrənilməsi akademik Hüseyn Əhmədovun adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və səyi ilə hələ keçən əsrin 70-ci illərində bu fənn ali pedaqoji məktəblərimizin pedaqoji fənlər sistemində tədris planlarına daxil edilmiş və bu sahədə ilk proqramın müəllifi də akademik Hüseyn Əhmədov olmuşdur. 1977-ci ildə prof. M.Ə.Muradxanov və dos. Ə.S.Tağıyevlə birlikdə hazırladığı həmin proqram Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Proqram ən qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər Azərbaycanda təlim, tərbiyə, məktəb təhsilinin meydana gəlməsi və inkişafı, görkəmli maarifpərvərlərin və pedaqoqların

pedaqoji fikirlərinin sistemli tədrisi üçün çox vacib və əhəmiyyətli bir pedaqoji sənəd olmuşdur.

Gələcək müəllimlərin pedaqoji cəhətdən ixtisaslaşmasında böyük əhəmiyyəti olan və ali pedaqoji məktəblərimizdə, pedaqoji ixtisası olan universitetlərimizdə, Azərbaycan Müəllimlər İnstitutunda özünə möhkəm yer tutan adı çəkilən proqram ildən – ilə təkmilləşmiş və yeniləşmişdir. Sonralar bu proqram 1984, 1992, 1996-cı illərdə yenidən nəşr olunmuşdur (Proqramın sonrakı nəşrlərində prof. İramin İsayev, prof. Fərrux Rüstəmov iştirak etmişdir).

Yeniləşmiş və təkmilləşmiş "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun proqramının tərtibi, Azərbaycan məktəb tarixinə, tərbiyə və təhsilimizin, pedaqoji fikrimizin inkişaf tarixinə yeni baxış və yeni yanaşma tərzindən irəli gəlmişdir. Proqramın hazırlanmasında tarixi keçmişimizə, xüsusilə Azərbaycan məktəb və pedaqoji fikir tariximizə müstəqillik dövrümüzün prizmasından, Yeni Azərbaycan pedaqogikası baxışından, həmçinin bu günümüzün yeni tələbləri baxımından yanaşılmışdır.

Pedaqoji kadr hazırlığını təmin edən pedaqoji təmayüllü bakalavr pilləsində ixtisas fənləri sırasında "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" fənni də klassik fənlərdən olaraq öz aparıcı mövqeyini qorumaqdadır. Elə bu səbəbdən də ixtisaslı müəllim kadrlarının, həmçinin elmi-pedaqoji kadrlar hazırlığını yeni tələblər səviyyəsində təmin etmək məqsədilə məhz kredit sisteminin tələblərinə uyğun olaraq "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" proqramının yeni məzmunda, yeni üslubda hazırlanması vacibliyini meydana çıxarmışdır.

Proqramda əsas məqsəd təkcə savadlı, bilikli müəllim kadrları hazırıamaq deyil, həm də çoxpilləli təhsilin, kredit sisteminin tələblərinə uygun olaraq tədqiqatçı-müəllim, peşəkar müəllim-pedaqoq hazırlığını təmin etməkdir.

Proqramda tədris mövzuları yeniləşmiş, təkmilləşmiş, bir sıra yeni mövzular, daxil edilmiş, bəzi mövzular, redaktə edilmişdir.

Proqramda ilk dəfə olaraq kredit sisteminin tələblərindən irəli gələn tələbələr üçün "Sərbəst işlər"in mövzuları, ədəbiyyat siyahısı və yazılma qaydaları, işin əvvəldən sonadək hazırlanma metodikası öz əksini tapmışdır.

"Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursu gələcək müəllimlərin pedaqoji peşəyə hazırlanmalarında, ümumi pedaqoji görüşlərinin daha da inkişaf etdirilməsində, tarixən inkişaf etmiş Azərbaycan məktəb və pedaqoji irsin, müxtəlif tarixi dövrlərdə təlim, tərbiyə mədəniyyətinin inkişaf prosesinin öyrənilməsinin və bu sahədə keçmiş pedaqoji irslə bağlı təsəvvürlərinin genişləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu kursun öyrənilməsi gələcək müəllimlərin müxtəlif tarixi dövrlərdə təhsilin, məktəb tarixinin, tərbiyə məsələlərinin mühüm pedaqoji problemlərini öyrənməyə kömək edir.

Kursun tədrisində tələbələr məktəb və pedaqoji fikrin ictimai-sosial inkişafın tələblərinə necə cavab verdiyini, təlim-tərbiyə nəzəriyyəsinə və təcrübəsinə necə nüfuz etdiyini, yeni pedaqoji ideyaların məktəb təcrübəsinə, onun gələcək perspektiv inkişafına necə təsir etdiyini öyrənə bilirlər.

Bu kursun tədrisində hər bir tələbə Azərbaycan məktəb və pedaqoji fikir tarixini dərindən öyrənməklə müasir təhsil problemlərinin həllində də fəal iştirak edir və gələcəyə düzgün proqnozlar vermək imkanı qazanır. Necə ki, yaxşı demişlər, keçmişi bilmədən bu günü və gələcəyi dəyərləndirmək olmaz. Tarix həqiqətin anasıdır.

Tələbələr bu kursun öyrənilməsində həmçinin proqramda göstərilən mövzulardan seçərək müstəqil "Sərbəst iş" yazaraq biliklərini daha da genişləndirir və bu da öz növbəsində mövzunun daha da yaxşı mənimsənilməsinə kömək edir.

"Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursu öncə ali təhsilin bakalavr pilləsində, sonra da, əlbəttə təhsilin magistratura pilləsində daha da təkmilləşmiş məzmunda tədrisi nəzərdə tutulur.

**Müxtəlif Ali Pedaqoji Məktəblərimizin tədris planlarında müxtəlif ixtisaslar üzrə "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" fənninə müxtəlif saatlar ayrıldığından proqramda tədris olunacaq mövzuların konkret saatları göstərilməmişdir. Tədris planında ixtisaslar üzrə fənnə ayrılmış ümumi saata müqabil olaraq konkret bir mövzuya və ya böyük bir mövzunu**

**ehtiyac olarsa bir və ya iki yerə bölərək ona müəyyən saatlar ayırmaq, mühazirə və seminar saatlarını müəyyənləşdirmək olar ki, bu işdə müvafiq kafedralara sərbəstlik verilir.**

***Proqram Azərbaycan Müəllimlər İnstitutunun pedaqoji fakültəsinin Fakültə Elmi Şurasının 09.10.2009-cu il tarixli iclasında (prot. №01), Azərbaycan Müəllimlər İnstitutunun Elmi-Metodik Şurasının 01.04.2010-cu il tarixli iclasında (prot. № 01) və Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Pedaqogika və psixologiya" bölməsinin 16.06.2010-cu il tarixli iclasında (prot.№08) müzakirə edilərək bəyənilmişdir.***

# “AZƏRBAYCAN MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ” FƏNNİNİN PROQRAMI

## ƏN QƏDİM DÖVRLƏRDƏN VII ƏSRƏ QƏDƏR AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR.

Azərbaycanda tərbiyə və təhslin ilkin xarakterik əlamətləri. Qobustan qayaları, Gəmiqaya və digər tarixi yerlərimiz, abidələrimiz, daş kitabələrimiz üzərində əlifba nümunələri, yazılar, piktoqrafik işarələr, rəsmlər və onların pedaqoji fikir tarixində əhəmiyyəti.İlkin savad təlimi .

Arxeoloji qazıntılar zamanı tapılmış əşyalar və tarixi abidələrimiz üzərində piktoqrafik işarələrin, şəkli yazıların, rəsmlərin pedaqoji əhəmiyyəti. Qədim dövrlərdə Azərbaycanda peşə və sənətkarlıq. Orxon Yenisey abidələri üzərində yazılar və onların pedaqoji əhəmiyyəti. Qədim Azərbaycan ərazisində, arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri, əşyalar üzərində əlifba və yazı nümunələri.

## AZƏRBAYCAN TAYFA BİRLİKLƏRİNDƏ VƏ FEODAL DÖVLƏTLƏRİNDƏ TƏRBİYƏ VƏ TƏHSİL MƏDƏNİYYƏTİ

Qədim Azərbaycan tayfa birliklərində, feodal dövlətlərində tərbiyə və təhsil məsələlərinin səciyyəsi. Aratta, Lullubi, Kutium tayfa birliklərində tərbiyə və təhsil. Manna və Midiyada tərbiyə və təhsil. Qədim Albaniyada, Atropatenada tərbiyə, təhsil və pedaqoji fikirlər.Qədim Alban əlifbası və bu əlifba ilə yazılmış əsərlər haqqında məlumat. Qədim yazılar və onların pedaqoji fikir tariximizdə yeri. İslamaqədərki dövrdə tərbiyənin əsas məzmunu və məqsədi.

Müxtəlif təmayüllü məktəblərin yaranması. Xalqın yaratdığı pedaqoji fikirlərə bir nəzər.

## QƏDİM YAZILARIMIZ VƏ ONLARIN PEDAQOJİ FİKİR TARİXİMIZDƏ YERİ

Pedaqoji fikir tariximizdə yazı və əlifbanın əhəmiyyəti. Mixi, şəkli yazılar, təsviri-süjetli rəsmlər və insanların ilk savad təlimi –"Tayfa savadı". Avesta əlifbası ilə yazılmış Zərdüştün "Avesta" kitabı haqqında məlumat.

Manna və Midiya yazıları.

Orxon-Yenisey, Gültəkin abidələri üzərində yazılar və onların pedaqoji mahiyyəti. Türk xalqlarının Göytürk əlifbası.

İslamiyyətin yaranması ilə Azərbaycan ərazisində ərəb əlifbasının yayılması.

Ərəb əlifbasından latın əlifbasına keçid və sonrakı əlifba islahatları.

## AZƏRBAYCANDA ZƏRDÜŞT MƏKTƏBLƏRİ VƏ "AVESTA"DA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Azərbaycanda Zərdüştlüyün yaranması və inkişafı. "Azərbaycanda sistemli məktəb təhsili dövrünün Zərdüşt məktəbləri ilə başlaması"(Hüseyn Əhmədov). Zərdüşt məktəbləri, buradakı təhsil sistemi və «Avesta»da tərbiyə məsələləri. Azərbaycanda Atəşkədə və Atəşgahlar Zərdüştlüyün ibadət və təlim-tədris yeri kimi. Zərdüşt məktəblərində təhsil sistemi, təlim və tərbiyə məsələlərinin səciyyəvi xüsusiyyətləri. Nizami Gəncəvi Zərdüştlük, Atəşkədə və Atəşgahlarda tərbiyə və tədris məsələləri.

Atəşkədə idi alimlər yeri.
Orda saxlanardı, sərvət, xəzinə
Düşməsin başqa bir şəxsin əlinə
Hər sonsuz varlı da, "savabdır" – deyə
Malını qoyardı atəşkədəyə ( Nizami Gəncəvi)

"Avesta"da "Xeyirxah fikir", "Xeyirxah söz", "Xeyirxah davranış"- Zərdüştlüyün əxlaq prinsipi kimi. Zərdüştlüyün əxlaq idealı – xeyirxahlıq, ədalət, yaxşılıq.

"Avesta"da tərbiyəvi fikirlər. "Avesta"da müəllim-şagird münasibətləri. "Avesta" dualarında tərbiyə məsələləri."Avesta"da tərbiyə məsələlərinin maddi və mənəvi təmizliyə əsaslanması. Maddi təmizlik: Fiziki təmizlik(bədən , geyim, ev –eşik təmizliyi). Mənəvi təmizlik ( əqidə, məslək, əməllərin saflığı)

## İSLAMİYYƏTİN İLK DÖVRLƏRİNDƏ TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR.

İslamiyyətin ilk dövrlərində ərəbdilli Azərbaycan məvali şairləri və onların şeirlərində pedaqoji ideyalar və mənəviyyat məsələləri. VII-VIII əsrlərdə Məkkə və Mədinədə yaşamış **Musa Şəhavət, Əbül Abbas- Əl Əma, İsmayıl ibn Yəsar** kimi Azərbaycan məvali şairlərinin əsərlərində milli-mənəvi ruhlu şeirlər.

İslam prinsipləri əsasında yeni mənəviyyat və əxlaqın yaranması. İslam təlim və tərbiyəsinin əsas məqsədi. İslam tərbiyəsinin səciyyəvi xüsusiyyətləri. Məhəmməd Peyğəmbərin (s) elm, bilik, əxlaq və mənəviyyat haqqında fikirləri. İslamiyyətdə ilk təhsil müəssisələrinin yaranması. Suffə, kuttab və məktəblərdə təhsilin məzmunu.

Xanegah, Təkyə, Dərgah və Zaviyələrdə təhsil. Kitab evləri və kitabxanalar elm, təhsil mərkəzləri kimi.

Mədrəsələrin yaranması, növləri və quruluşu. Məktəb və mədrəsə təhsilinin məzmunu. Şərqdə və Azərbaycanda təhsilin və pedaqoji fikrin inkişafında «Nizamiyyə» mədrəsələrinin yaranması, inkişfı və fəaliyyəti.

İslamiyyətdə elmin inkişafı. Böyük Şərq –İslam alimlərinin dünya elm və mədəniyyətinə töhfələri.

İslamın müqəddəs кitabı «Qurani-Kərim». «Qurani-Kərim» ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi вə səmavi kitabların sonuncusudur. Qurani –Kərimdə tərbiyə və əxlaq məsələləri.

«Quran»ın surələri (114) və ayələri (6236). İslamda tərbiyə. İslamda tərbiyənin dini və dünyəvi xarakter daşıması. İslamda təlim anlayışı. Təlimlə tərbiyə arasında əlaqə. İslamda uşağın inkişafının iki dövrü: 1) tədbiri dövr; 2) tətbiqi dövr. Quranda bilavasitə tərbiyə ilə bağlı nazil olan ayələr: 1) insanları yaxşı işlər görməyə ruhlandıran ayələr; 2) insanları pis işlərdən çəkindirən ayələr. İslamda tərbiyə konsepsiyası.

İslamda tərbiyənin **prinsipləri**:

1) Tərbiyənin ilahi səciyyə daşıması;
2) Tərbiyənin insan fitrəti ilə bağlı olması;
3) Tərbiyənin ümumi səciyyə daşıması;
4) Tərbiyənin bütöv səciyyə daşıması;
5) Tərbiyənin üsul və vasitələrinin inandırıcı və qaneedici olması;
6) Tərbiyəyə həm fərdi, həm ictimai məsuliyyət kimi yanaşılması.

İslamda tərbiyənin **üsulları:**

1) Peyğəmbərin nümunəsi;
2) Həvəsləndirmə və qorxutma;
3) Keçmiş nəsillərin öz başına gələnləri nağıl etməsi;
4) Moizə və öyüd-nəsihət;
5) Bilik əsasında mübahisə;
6) Müqayisə etmək və misal çəkmək.

İslamda ailə tərbiyəsi. Övladların tərbiyəsində valideynlərin vəzifələri və məsuliyyəti.

Təsəvvüf ədəbiyyatının meydana gəlməsi, onun görkəmli nümayəndələri. Təsəvvüfdə tərbiyə, əxlaq məsələləri.

# ERKƏN ORTA ƏSRLƏRDƏ (XII ƏSRƏ QƏDƏR) AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR. AZƏRBAYCAN XALQ PEDAQOGOJİ FİKRİ.

Erkən orta əsrlər dövrünün Azərbyacan poeziyasında, alim və ziyalılarının əsərlərində pedaqoji fikirlər.

**Qətran Təbrizi** «Divan»ında pedaqoji ideyalar.

**Xətib Təbrizinin** pedaqoji fəaliyyəti və əsərlərində pedaqoji fikirlər. **Əbülhəsən Bəhmənyarın** «Ət-Təhsil» əsərində, didaktikanın və ümumilikdə elmi pedaqogikanın inkişafında pedaqoji fikir və ideyaları.

Pedaqoji fikrin və elmin inkişafında orta əsr ümumtürk və ümumşərq pedaqoji fikrinin görkəmli nümayəndələri haqqında ümumi məlumat. (Mahmud Kaşqarlı, Balasaqunlu Yusif Xas Hacib, Ədib Əhməd Yüknəki, Farabi, Biruni, İbn Sina, Qəzzali, Əhməd Yəsəvi, Cəlaləddin Rumi, Hacı Bektaş Vəli və başqaları).

Azərbaycan xalq pedaqogikasının pedaqoji elmin inkışafında rolu. Xalq müdrikliyi və onların pedaqoji fikrin inkişafında əhəmiyyəti. Azərbaycan folklor nümumələrinin pedaqoji əhəmiyyəti. **Atalar sözləri, və zərbül məsəllər, nağıl və dastanlar, bayatı və laylalar və digər folklor nümunələrində tərbiyə məsələləri, mənəvi zənginliklər, xalq müdrikliyi.**

**“Oğuznamə”lər** və onların pedaqoji əhəmiyyəti.

**«Kitabi Dədə-Qorqud»** dastanının pedaqoji əhəmiyyəti. Dədə Qorqud dastanlarında vətənpərvərlik, cəsurluq və ailə tərbiyəsi məsələləri.

Dədə Qorqud dastanlarında adətlər, mərasimlər və onların tərbiyəvi əhəmiyyəti.

# XII-XIV ƏSRLƏRDƏ AZƏRBAYCANDA MƏKTƏB VƏ PEDAQOJİ FİKİR.

XII əsrdə Azərbaycanda orta əsr mədəniyyətinin inkişafı. Tərbiyə və məktəb təhsilinin ümumi səciyyəsi. Azərbaycanda məktəb və mədrəsələr, digər təhsil ocaqları.

**Nizami Gəncəvi** (1141-1203). Yaşadığı dövr. İctimai-fəlsəfi, pedaqoji görüşləri. Nizami uşaqlıq və yeniyetməlik dövrlərinin xarakteristikası haqqında. Nizaminin oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətləri. Nizami təlimin məzmunu və tərbiyəedici mahiyyəti haqqında. Nizami mənəvi zənginliklər haqqında. Nizami əsərlərində xeyirxahlıq, sadəlik və təvazökarlıq, vətənpərvərlik, əməksevərlik, dostluq və yoldaşlıq, mənəvi zənginliklər haqqında. Nizami müəllim, elm və alim haqqında.

**Xaqani Şirvani**(1126-1199). Həyatı və dövrün böyük şairi, ədibi, filosofu və pedaqoqu kimi. Xaqaninin əsərlərində mənəvi, əxlaqi zənginliklər. Xaqani elm və təhsil haqqında. Xaqani müəllim və tərbiyəçi haqqında.

**Nəsirəddin Tusi** (1201-1274). Həyatı və elmi fəaliyyəti. Marağa rəsədxanası. «Əxlaqi Nasiri» əsərində mənəvi əxlaqi keyfiyyətlər və əsərin pedaqoji fikir tarixində əhəmiyyəti. . "Əxlaqi-Nasiri"də tərbiyə məsələlərinin əsas istiqamətləri. N.Tusinin "Əxalqi Nasiri" əsərində fəzilətlər və rəzalətlər, onların müasir pedaqogika elmində əhəmiyyəti.

**Əvhədi Marağalı**. (1275-1333) «Cami-cəm» əsərində pedaqoji fikirlər. Əvhədi elm və təhsil haqqnıda. Əvhədi müəllim haqqında.

XIII –XIV əsrlərdə Azərbaycanda mədrəsələr və elmi pedaqoji müəssisələr. (Marağa akademiyası, Şənb-e Qazan ali təhsil kompleksi, Rəbe Rəşidi darülfünunu). Elmi, bədii yazılar, dastanlar. Azərbaycanda xəttatlıq. Əhali arasında savadın və mədəniyyətin yayılmasında kitabxanaların, məktəb və mədrəsələrin rolu.

## XV-XVIII ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAFI, TƏRBİYƏ VƏ PEDAQOJİ İDEYALAR

XV – XVIII əsrlərdə Azərbaycanda təhsilin və yeni pedaqoji ideyaların inkişafı. XV-XVIII əsrlərdə Azərbaycan xalq yaradıcılığında pedaqoji ideyalar. Xalq pedaqogikasının inkişafı.

**Məhəmməd Füzuli** (1494-1556) böyük filosof şair, pedaqoq və tərbiyəçi kimi Füzuli insan və tərbiyə problemi haqqında. Füzulinin oğluna nəsihətləri. Füzuli tərbiyənin məqsədi və təlimin məzmunu haqqında. Füzuli əsərlərində humanizm, vətənə məhəbbət, əməksevrəlik ideyaları. Füzuli Azərbaycanda ilk uşaq ədəbiyyatının yaradıcısı kimi.

**İmadəddin Nəsimi** (1369-1417) "Divan"ında tərbiyə və təhsil məsələlərinin əsas mahiyyəti. Nəsimi ideyalarında humanizm tərbiyəsi. Nəsimi əsərlərində şəxsiyyətin mənəvi kamilliyi. Hürufizm, onun elmi-pedaqoji mahiyyəti və əhəmiyyəti.

**Şah İsmayıl Xətai** (1487-1524)**, Cahanşah Həqiqi** (1397-1467) şeirlərində vətənpərvərlik motivləri və şəxsiyyətin mənəvi, əxlaqi dəyərləri haqqında.

**Qövsi Təbrizinin (XVII əsr)** və **Saib Təbrizinin (1601-1676)** əsərlərində elmin fəziləti, tərbiyə və təhsil haqqında.

**M.V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir** yaradıcılığında pedaqoji ideyalar, mənəvi tərbiyə məsələləri.

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ VƏ AZƏRBAYCANDA İLK DÖVLƏT MƏKTƏBLƏRİNİIN YARANMASI VƏ PEDAQOJİ FİKRİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəbin ümumi vəziyyəti. Azərbaycanın Rusiyanın tərkibinə daxil olduqdan sonra çarizmin təhsil siyasəti. Azərbaycanda ilk Qəza məktəblərinin yaranması. Şuşada, Şamaxıda, Naxçıvanda, Nuxada, Gəncədə ilk qəza məktəbləri.

Azərbaycanda ilk ibtidai məktəblərin meydana gəlməsi və daha sonra müxtəlif tipli məktəblərin yaranması. Rus-tatar məktəblərinin yaranması.

Ana dilində ilk "Əlifba"ların, dərslik və dərs vəsaitlərinin meydana gəlməsi.

Rusiyada başlanan ictima-pedaqoji hərəkatın Azərbaycana təsiri. Qafqaz məktəblərinin 1867-ci il Nizamnaməsi. Bakı-Dağıstan və İrəvan – Yelizavetpol xalq məktəbləri direksiyasının təşkili (1876).

Şəhər məktəblərinin 1872-ci il Nizamnaməsi. Mövcud qəza məktəblərinin şəhər məktəblərinə çevrilməsi. Kənd normal məktəblərinin 1875-ci il Nizamnaməsi. Azərbaycan kəndlərində təhsilin rus dilində verildiyi ilk dövlət məktəblərinin meydana gəlməsi. Xalq məktəbləri şəbəkəsinin getdikcə genişlənməsi.

Dəmiryolu və Bazargünü məktəbələrinin meydana gəlməsi.

Müsəlman məktəb və mədrəsələrində təhsilin bəzi səciyyəvi cəhətləri.

**X X X**

**A.Bakıxanovun** (1794-1847) ictimai-siyasi görüşləri. Tərbiyənin məqsədi haqqnıda. Qadın təhsili haqqında. Azərbaycanda elmi-pedaqoji fikrin inkişafında A.Bakıxanovun rolu. Bakıda müsəlman məktəbi təsis edilməsinə dair Bakıxanovun layihəsi. A Bakıxanovun «Nəsihətnamə»si.

**M.Kazımbəyin** (1802-1870) ictimai-siyasi görüşləri.Onun türk-tatar dilinin qrammatikası» dərsliyi. Azərbaycan dilinin tədrisində onun rolu və yeni üsullu dərsliklərin yaradılmasına təsiri.

**Mirzə Şəfi Vazehin** (1802-1852) pedaqoji fəaliyyəti. Təlim və tərbiyəyə aid fikirləri. M.Ş.Vazehin dərsliyi. M.Ş.Vazehin çalışdığı yeni üsullu məktəb. Ana

dilinin tədrisində və ana dili dərsliklərinin tərtibində onun hazırladığı müntəxabatın əhəmiyyəti.

**M.F.Axundovun** (1812-1878) ictimai-siyasi və pedaqoji görüşləri.M.F.Axundovun maarifçilik ideyaları.

Tərbiyənin məqsəd və mahiyyəti haqqında. M.F. Axundovun savad təlimi nəzəriyyəsi, yeni əlifba uğrunda mübarizəsi. M.f.Axundov və əlifba islahatı.

## XIX ƏSRİN SONLARINDA, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MAARİFÇİLİK HƏRƏKATI, ANA DİLLİ MƏKTƏBLƏR VƏ MİLLİ TƏHSİL UĞRUNDA MÜBARİZƏ

Azərbaycanda orta təhsil müəssisələrinin (real və klassik gimnaziyaların) meydana gəlməsi. Onların xüsusiyyətləri.Təlimin məzmunu və üsulları. Məktəblərdə daxili nizam-intizam.

70-80-cı illərdə çarizmin təhsil siyasəti. Azərbaycanda orta təhsilin sonrakı inkişafı. Qız məktəblərinin meydana gəlməsi. Ənənəvi məktəb və mədrəsələrin XIX əsrdə ümumi inkişafı. Məktəb və mədrəsələr barəsində dövlətin siyasəti.

Azərbaycanda maarifçilik hərəkatının inkişafı. İlk ana dilli məktəblərin yaranması.”Cədididzm” hərəkatı və İsmayıl Bəy Qaspıralının fəaliyyəti. **Azərbaycanda ”Üsuli – Cədid məktəblərinin yaranması** və inkişafı. Ana dilində mətbuatın, dərslik və dərs vəsaitlərinin hazırlanması.

Ana dili təlimi ideyası üçün zəminin yaranması. Ana dilli məktəblərin təşkilində ilk addımlar.

XX əsrin əvvəllərində Azərbaycanda məktəb təhsilinin ümumi vəziyyəti: ibtidai və şəhər məktəblərinin genişlənməsi, yüksək tipli ibtidai məktəblər. «Rus-müsəlman» məktəbləri.

Azərbaycan milli burjuaziyasının **“Səadət”, “Nəşri – maarif”, “Nicat” maarifçilik, xeyriyyə cəmiyətləri.** Onların məktəb və maarıf sahəsindəki fəliyyətləri.**”Dəbistan” , “Məktəb”, “Rəhbər”** jurnallarının nəşri.

Təlimin demokratikləşdirilməsi və ana dilində aparılması uğrunda mübarizəsinin genişlənməsi. **“Molla Nəsrəddin jurnalında təlim-tərbiyə məsələləri.** Mollanəsrəddinçi şairlərin milli təhsil, ana dili uğrunda mübarizələri. Ana dilində yeni dərs kitabları.Yeni əlifba uğrunda mübarizə**. Azərbaycan Müəllimlərinin I (1906) və II (1907) qurultayı**.

**X X X**

**M.İ.Qasirin** (1806-1900) pedaqoji fəaliyyəti və ana dilində açdığı məktəb. M.İ.Qasirin dərslikləri.

**H.B.Zərdabi** (1842-1907) ilk ali təhsilli azərbaycanlı müəllim kimi. Onun xalq maarifi uğrunda mübarizəsi. «Əkinçi» qəzetində məktəb və maarif məsələləri. H.B. Zərdabi fiziki tərbiyə və qadın təhsili haqqında. Bakıda ilk «rus-müsəlman» qız məktəbinin təşkilində Zərdabinin xidmətləri.

**S.Ə.Şirvaninin** (1835-1888) pedaqoji fəaliyyəti. Şirvaninin ana dilli məktəbi və ana dili dərsliyi. S.Ə.Şirvaninin təlim və tərbiyəyə aid fikirləri. S.Ə.Şirvanin rus dilini öyrənməyin zərurəti haqqında. S.Ə.Şirvani uşaq ədəbiyyatı haqqında. S.Ə.Şirvaninin oğluna nəsihətləri.

**M.T.Sidqinin** (1854-1904) həyatı və fəaliyyəti. Sidqi ana dili və ana dilində məktəblər haqqında. M.T. Sidqinin dilimizin saflığı və təmizliyi uğrunda fikirləri və mübarizəsi. M.T.Sidqinin pedaqoji əsərləri və pedaqoji fikirləri. M.T.Sidqinin Ordubadda açdığı “Əxtər” (1892) və Naxçıvanda açdığı “Tərbiyə” (1894) məktəbləri haqqında. “Tərbiyə” məktəbinin məzunları haqqında məlumat. M.T.Sidqinin dərslikləri. M.T.Sidqinin “Məktəb hekayələri”. M.T.Sidqinin bədii əsərlərində mənəviyyat və əxlaq məsələləri. Sidqinin uşaqlar üçün yazdığı mənzum əsərlər. Sidqinin «Pedaqogika» dərsliyi.

**M.M.Nəvvabın** (1833-1918) ana dilli məktəbi və ana dili dərslikləri. M.M.Nəvvabın «Nəsihətnamə»si. M.M.Nəvvab estetik tərbiyə və musiqi haqqında.

**S.M.Qənizadənin** (1866-1937) pedaqoji fəaliyyəti və pedaqoji fikirləri. S.M.Qənizadə H.Mahmudbəyovla bərabər Azərbaycanda «Rus-müsəlman məktəbi» adlı yeni tipli tədris ocaqlarının banisidir.Bu məktəblərdə təhsilin

məzmunu. S.M.Qənizadənin dərslikləri. S.M.Qənizadə əxlaqi keyfiyyətlər haqqında.

**H.Mahmudbəyovun** (1864-1928) maarifçilik fəaliyyəti və yeni məktəb uğrunda mübarizəsi. H.Mahmudbəyovun Sovet dövründə pedaqoji fəaliyyəti.

Azərbaycan pedaqoji fikrinə mütərəqqi rus pedaqogikasının təsiri. K.D.Uşinskinin Azərbaycanda ilk ardıcılları.

**R.Əfəndiyevin** (1863-1942) pedaqoji fəaliyyəti və pedaqoji fikirləri. R.Əfəndiyev K.D.Uşinskinin ilk ardıcıllarından biri kimi . R,Əfəndiyev və mütərəqqi rus pedaqogikası. Onun «Uşaq bağçası», «Bəsirət-ül-ətfal» adlı dərslikləri və ona «Rəhbərlik» adlı vəsaiti. R.Əfəndiyevin didaktik fikirləri. Müəllim kadrları hazırlığında R.Əfəndiyevin xidmətləri.

**Firudin bəy Köçərli** (1863-1920). Həyatı və müəllimlik fəaliyyəti. Ana dili və onun tədrisi haqqında fikirləri. Xalq maarifi, yeni məktəb və Azərbaycan dilinin saflığı uğrunda mübarizəsi, çarizmin ruslaşdırma siyasəti əleyhinə çıxışları. F.B.Köçərli əlifba haqqında, qadın təhsili haqqında və rus dilini öyrənməyin əhəmiyyəti haqqında. F.B.Köşərlinin Azərbaycan ədəbiyyatı haqqında əsərləri və dərs kitabları haqqında. Azərbaycanda pedaqoji kadr hazırlığında F.B.Köçərlinin xidmətləri.F.B.Köçərlinin Qori Müəllimlər Seminariyasında və Qazax Müəllimlər Seminariyasında fəaliyyəti.

**Cəlil Məmmədquluzadə** (1866-1932). Həyatı və elmi-ədəbi, pedaqoji fəaliyyəti. Qori Müəllimlər Seminariyasında təhsil illəri. C.Məmmədquluzadənin müəllimlik fəaliyyəti. Maarifçilik görüşləri. "Molla Həsrəddin" jurnalında feodal əxlaq normalarına qarşı mübarizəsi. Ana dili вə uşaq ədəbiyyatı haqqında fikirləri. Demoкratiк məкtəb uğrunda mübarizəci. Əxlaq tərbiyəsi, vətənpərvərliк, xalqlar dostluğu, bədii tərbiyə, əməк tərbiyəci, bədən tərbiyəsi haqqında. Yeni əlifba uğrunda mübarizədə rolu. C.Məmmədquluzadə qadın təhsili və tərbiyəsi haqqında. C.Məmmədquluzadənin Sovet dövründəкi fəaliyyəti.

**Hüseyn Cavid** (1882-1941) Həyatı, elmi-ədəbi və pedaqoji fəaliyyəti haqqında məlumat.

Əsərlərində pedaqoji ideyalar. H.Cavidin uşaq şeirlərində mənəviyyat və əxlaq tərbiyəsi məsələləri. H.Cavidin "Rüşdiyyə", "Səfa" məktəblərində pedaqoji fəaliyyəti. H.Cavidin ana dilimizin saflığı uğrunda fikirləri və ədəbi-pedaqoji fəaliyyəti. H.Cavidin təlim-tərbiyə haqqında, əxlaq və mənəvi dəyərlər haqqında fikirləri.

**Mirzə Ələкbər Sabir** (1862-1911). Həyatı, ictimai-siyasi, ədəbi-pedaqoji baxışları və fəaliyyəti. Sbirin elm və təhsil haqqında fiкirləri. Yeni demoкratiк məкtəb uğrunda mübarizəsi. Sabir təlimin məzmunu və üsulları barədə fiкirləri. Sabir dövrünün dərs кitablarının tənqidi haqqında . Sabirin tərbiyə haqqında fiкirləri. Sabir feodal-patriarxal və burjua əxlaqının tənqidi haqqında. Sabir müəllim haqqında. Sabirin uşaq şeirlərində tərbiyə məsələləri. Sabirin estetiк görüşləri.

**Abbac Səhhət** (1874-1908). Həyatı və edaqoji fəaliyyəti. Dünyagörüşünün əsas ictiqamətləri. Ümumi təhsil məsələləri, məкtəb və müəllim haqqında fiкirləri. Dərsliкləri. Ana dili və onun tədrisi haqqında. Uşaq əsərlərində vətənpərvərlik, əxlaq, əməк, estetiк və ailə tərbiyəsi məsələləri.

**Məhəmmədağa Şahtaxtlı** (1848-1930). Dünyagörüşünün formalaşmasına təsir edən başlıca amillər. Jurnalistliк fəaliyyətinin maarifçiliк ictiqaməti. Ərəb əlifbasının çətinliyi və yeni əlifba haqqında fiкirləri. Köhnə məкtəbin tənqidi. Yeni məкtəb və müəllim hazırlığı haqqında fiкirləri. Mütərəqqi rus və Avropa mədəniyyətinin təbliği. Sovet dövründəкi müəllimliк fəaliyyəti.

**Fərhad Ağazadə** (1880-1931).Həyatı, Qori Müəllimlər Seminariyasında təhsil illəri. Pedaqoji fəaliyyəti. Zaqafqaziya müsəlman müəllimlərinin I və II qurultaylarının təşкili və кeçirilməsində rolu. Dərsliкləri. Məкtəb, müəllim, təlim-tərbiyə məsələlərinə dair fiкirləri. Ana dili və onun tədrisi haqqında. Yeni əlifbanın qəbulu uğrunda apardığı mübarizə. Sovet dövrü fəaliyyəti.

**Üzeyir Hacıbəyov** (1885-1948). Həyatı, Qori Müəllimlər İnstitutunda təhsil illəri. Pedaqoji fəaliyyəti. Xalq maarifi sahəsində çarizmin mürtəce siyacətinin tənqidi. Dünyəvi təhsil və ana dili məкtəbi uğrunda mübarizəci. Xəlqiliк ideyası. Təlim üsulları haqqında. Rus dilinin tədrisi metodiкasına dair fiкirləri. «Hesab

məsələləri» dərsliyi. Qadın azadlığı uğrunda mübarizəsi. Ailə tərbiyəsi haqqında. Estetiк tərbiyənin məzmunu və vasitələri haqqında. Müəllimlik peşəsi və müəllim hazırlığı haqqında.

**Nəriman Nərimanov** (1870-1925). Həyatı, pedaqoji fəaliyyəti. İctimai-siyasi görüşləri. Milli məкtəb və tərbiyə sahəsində çarizmin xalqa zidd siyasətinin tənqidi. Tərbiyənin məqsədi haqqında. Şəxsiyyətin formalaşmasına təsir edən amillər. Xalqlar dostluğu və beynəlmiləlçiliк tərbiyəsi haqqında. Vətənpərvərliк və əməк tərbiyəsi haqqında. Əqli təhsil, təlimin məzmunu və üsulları haqqında. Ana dili və qadın təhsili haqqında. Müəllimlik peşəsinə və müəllim hazırlığına aid fiкirləri. Xalq məкtəbləri üçün dərs кitabları. N.Nərimanov və yeni əlifba problemi.

Həştərxanda və Azərbaycanda sovet məкtəblərinin yaradılmasında və xalq maarifinin inкişafında N.Nərimanovun xidmətləri.

**Mirzə Həsən Rüşdiyyənin** (1850-1943)pedaqoji fəaliyyəti və təlim –tərbiyə haqqında fikirləri.

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA QADIN TƏHSİLİ VƏ ONUN İNKİŞAFI

Azərbaycan ərazisində rus dilində ilk qız məktəblərinin yaradılması.

"Müqəddəs Nina" Xeyriyyə cəmiyyətinin qız məktəblərinin yaradılmasında fəaliyyəti. "Müqəddəs Ripsime" qadın cəmiyyətinin qız məktəbləri.

Azərbaycanda qadın təhsilinin yaranması və inkişafında **H.B.Zərdabinin, M.T.Sidqinin, C.Məmmədquluzadənin, Məmmədağa Şahtaxtlının, Üzeyir Hacıbəyovun, Mirzə Kazım Bəyin** və başqalarının ictimai-pedaqoji fəaliyyəti.

Bakıda ilk qız məktəbi. Qız məktəbinin təşkilində Hacı Zeynalabdin Tağıyevin fəaliyyəti. H.Z. Tağıyevin maarifçilik fəaliyyəti. Real məktəblər, Mariya gimnaziyaları. Azərbaycan bölgələrində ilk qız məktəblərinin yaranması. H.Z.Tağıyevin Şərqdə ilk qız məktəbinin yaradılmasında və inkişaf etdirilməsində xidmətləri.

## XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA PEDAQOJİ KADR HAZIRLIĞI MƏSƏLƏLƏRİ

Azərbaycanda Müəllim kadrları hazırlığı problemləri. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası (1876) və orada Azərbaycan şöbəsinin təşkili(1879). Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunları. **Cəlil Məmmdquluzadə, Səfərəlibəy Vəlibəyov, Əliməmməd Xəlilov, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmmədəli Sidqi Səfərov, Əlirza Rasizadə, S.S.Axundov, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Səfərəlibəy Vəlibəyov, Hüseyn Minasazov, Əli Səbri Qasımov, Ələkbər Qərib, Əhməd Seyidov** və başqaları.

Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin inspektoru A.O.Çernyayevskinin (1840-1894) pedaqoji fəaliyyəti. Onun «Vətən dili» dərsliyi və "Rəhbərlik" adlı metodik vəsaiti. Çernyayevskinin xalq maarifinin inkişafı uğrunda mübarizəsi. F.B.Köçərlinin, R.B.Əfəndiyevin, S.Vəlibəyovun pedaqoji kadr hazırlığında fəaliyyəti və pedaqoji fikirləri.

Qori Müəllimlər Seminariyasının Qazaxa köçürülməsi (1918) və yeni pedaqoji kadr hazırlığı.

İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti haqqında. İrəvan Müəllimlər Seminariyasının müəllim və məzunları haqqında .

Azərbaycanda pedaqoji kadrların hazırlanmasında Naxçıvan Müəllimlər Seminariyasının (Naxçıvan Pedaqoji Texnikumu) fəaliyyəti. Naxçıvan Pedaqoji Texnikumunun müəllimləri və məzunları haqqında məlumat.

Azərbaycanda yeni pedaqoji məktəblərin, pedaqoji seminariyaların yaranması və inkişafı.

# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI DÖVRÜNDƏ MƏKTƏB VƏ PEDAQOJİ FİKRİN İNKİŞAFI

ADR dövründə xalq maarifinin milli ruhda, bəşəri məzmunda, yeni tərzdə təşkili, ana dilində dünyəvi məktəblərin yaradılması və mövcud məktəblərin milliləşdirilməsi. Azərbaycan parlamenti məktəblərdə ana dilinin (dövlət dilinin) tədrisi haqqında. Xalq Maarif Nazirliyinin təşkili. Qori Müəllimlər Seminariyasının Qazax filialının açılması və məzunalrı. F.B.Köçərlinin bu sahədəki xidmətləri.

Şərqdə ilk dünyəvi təhsil ocağı olan Azərbaycan Dövlət Universitetinin təşkili (1919). Azərbaycan Dövlət Universitetinin Rusiyadan **(Razumovski, Komarovsi, Makovelski, Marr, Seredinski və başqaları)** və Türkiyədən **(Xəlil Fıkrət, İsmayıl Hikmət, Möhyəddin** və başqaları) dəvət olunmuş pedaqoji kadrları.

Milli dərsliклərin yaradılmasında və кadr hazırlığında Türкiyə alimlərinin xidmətləri. Axşam кursları, sənət məкtəbləri və peşə təhsili.

Pedaqoji fiкrin inкişaf istiqamətləri. Milli istiqlal кonsepsiyası

**Məhəmməd Əmin Rəsulzadə** (1884-1955). Dövrü, həyatı və ictimai-siyasi görüşləri, milli maarifçiliк istiqamətləri. Milli məкtəb və təhsilin humanistləşdirilməsi və demoкratiкləşdirilməsi uğrunda mübarizəsi. Ümumi təhsil və milli tərbiyə haqqında fiкirləri. Əlifba və qadın təhsili haqqında fikirləri.

**Əhməd Cavad** (1882-1937). Həyatı, yaradıcılığı, dünyagörüşü. Vətəndaşlıq mövqeyi. Pedaqoji fəaliyyəti. Publisistiкasında və bədii yaradıcılığında məкtəb və maarif məsələləri. «Sərf və nəhv» dərsliyi. Əhməd Cavad ana dili və müəllim haqqında. Yaradıcılığında milli azadlıq çağırışları. Xeyriyyə cəmiyyətlərindəкi fəaliyyəti. ADR dövründəкi xidmətləri.

**1918-1920-ci illərdə pedaqoji cərəyanlar, yeni pedaqoji ideyalar** və pedaqoji fikrin görkəmli nümayəndələri.

Azərbaycanda pedaqoji tədqiqatların əsas istiqamətləri və yeni pedaqoji əsərlərin yaranması.

**Azərbaycan Müəllimlərinin III (1919) qurultayı.**

# AZƏRBAYSANDA SOVET MƏKTƏB QURUCULUĞU VƏ PEDAQOGİKA ELMİNİN YENİ İNKİŞAF MƏRHƏLƏSİ

